# Gəncədə iki tarixlə bağlı tədbir keçirilmişdir

Gəncə Şəhər İcra Hakimiyyəti və Gürcüstanın Gəncədəki Baş konsulluğunun təşkilatçılığı ilə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik əlaqələrin 30 illiyinə və gürcü yazıçısı Nikoloz Barataşvilinin 205 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.



Gürcüstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze, Gürcüstanın Gəncədəki Baş konsulu Nikoloz İaşvili, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, idarə, müəssisə, təşkilat rəhbərləri, yazıçılar, ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan N.İaşvili Azərbaycan və Gürcüstan arasında olan ikitərəfli əməkdaşlıqdan söz açaraq qeyd etmişdir ki, Azərbaycan və Gürcüstan arasında tarixi dostluq və qonşuluq ənənələrinə əsaslanan əlaqələr mövcuddur. Bu gün Gürcüstanla Azərbaycanı ilk növbədə qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir, ölkələrimiz bir sıra beynəlxalq təşkilat və qurumlar daxilində sıx əməkdaşlıq edirlər.

Baş konsul həmçinin bildirmişdir ki, bu il vaxtılə Gəncədə yaşayıb yaradan gürcü yazıçısı Nikolas Barataşvilinin 205 illiyi tamam olur. Bu münasibətlə şairin "Merani" kitabı Azərbaycan dilinə tərcümə edilərək poeziyasevərlərin ixtiyarına verilmişdir.

Gəncə ŞİH-in başçısı Niyazi Bayramov isə çıxışında möhkəm təməllər üzərində qurulan Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafından danışmışdır. Qeyd etmişdir ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdarkən Gürcüstanla münasibətlərin inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur. Sonrakı dövrdə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsi olaraq bu əlaqələr daha da inkişaf etmişdir.

Niyazi Bayramov Gəncədə gürcü şairi Nikoloz Barataşvilinin 205 illik yubileyinin qeyd olunmasının əhəmiyyətindən də söz açmışdır. Bildirmişdir ki, multikultural dəyərlərə sadiq olan Azərbaycan dövləti öz ərazisində yaşayan bütün xalqlara və onların mədəniyyətlərinə hər zaman diqqət göstərmişdir. Şəhər rəhbəri "Gürcüstanın Lermontovu" adlandırılan şairin yaradıcılığı ilə tanışlığın azərbaycanlı oxucular üçün də maraqlı olduğunu diqqətə çatdırmışdır.

Sonra Nikoloz Barataşvilinin "Merani" kitabının nüsxələri tədbir iştirakçılarına təqdim olunmuşdur. Kitabı Azərbaycan dilinə Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-dramaturq İmir Məmmədli tərcümə etmişdir.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana səfəri ilə bağlı videoçarx nümayiş olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***